*Cənubi Azərbaycan ədəbiyyatı*

# Eldar Muğanlı poeziyasında sosial-siyasi motivlər

**Qəndab Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gendab16@gmail.com

**Annotasiya.** Görkəmli şair, publisist Eldar Muğanlı Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatının üçüncü nəsil nümayəndələrindən biridir. Uzun illər İranda Azərbaycan ədəbiyyatı, mədəniyyəti və mətbuatının inkişafına xidmət edən E.Muğanlı şairlik və publisistik fəaliyyəti ilə yanaşı, ədəbi tənqid, tərtib və tədqiqat işləri ilə də məşğul olur. Aktiv sosial çalışmaları ilə yaxşı tanınan şair həm də mükəmməl şəxsiyyəti – yüksək mədəniyyəti və nəcib insani keyfiyyətləri ilə seçilən ziyalılarımızdandır.
Bu məqalədə Eldar Muğanlı poeziyasının əsasını təşkil edən sosial-siyasi motivlərindən – onun dara çəkilən həzin, nisgilli, yüksək estetik dərəcəyə malik, ideya cəhətdən əhəmiyyətli poetik dünyasından bəhs edəcəyik.
**Açar sözlər:** Cənubi Azərbaycan, poeziya, Eldar Muğanlı, sosial-siyasi motiv, milli azadlıq, metaforik

**Məqalə tarixçəsi:** göndərilib – 15.02.2022; qəbul edilib – 28.02.2022

# Socio-political motives in the poetry of Eldar Muganli

**Gandab Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gendab16@gmail.com

**Abstract.** An outstanding poet, publicist Eldar Muganli is one of the representatives of the third generation of the national democratic literature of South Azerbaijan. E.Muganli, who for many years has been serving for the development of Azerbaijani literature, culture and press in Iran, in addition to his poetic and journalistic activities, is also engaged in literary criticism, compilation and research. The poet, known for his active social activities, is also one of the intellectuals distinguished by a perfect personality – high culture and noble human qualities.
The article will discuss the socio-political motives underlying the poetry of Eldar Muganli – his mournful, sorrowful, highly aesthetic, ideologically significant poetic world.
**Keywords:** South Azerbaijan, poetry, Eldar Muganli, socio-political motive, national freedom, metaphorical

**Article history:** received – 15.02.2022; accepted − 28.02.2022

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatı heç bir dövrdə qüvvətli siyasi hadisələrlə, kütləvi hərəkatla, xalq həyatı ilə XX əsrdə olduğu qədər həmahəng səslənməmişdir. Beləki, Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatının təşəkkülünün məhz bu əsrin 40-cı illərinə aid olması bir təsadüf deyildir.

Professor Vüqar Əhmədin də qeyd etdiyi kimi, "XIX əsrin ikinci yarısında, XX əsrdə yaşamış Azərbaycan ziyalıları danışıq dili əsasında ədəbi dilimizi qurmağa, əsərlərinin (istər bədii, istər publisistik) dilini xalqa yaxınlaşdırmağa çalışmışlar. Ana dilinin zəngin, təbii və həyati bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə onlar bir tərəfdən xalq dili zəminində ədəbi dili formalaşdırmağa çalışmış, ikinci bir tərəfdən, əsərlərinin bədii təsir gücünü artırmaqla xalq psixologiyasına daha güclü təsir göstərmiş, üçüncü bir tərəfdən, sonrakı dövrlər üçün örnək-ədəbi məktəb yaratmışlar" [2, s.183] ki, həmin məktəbin yetirmələrindən biri də Eldar Muğanlıdır.

1960-cı ildə Cənubi Azərbaycanın Muğan Mahalında bir kəndli ailəsində dünyaya göz açan Eldar Nüsrət oğlu Muğanlının uşaqlıq və gənclik illəri təlatüm və təbəddülatlar, müharibə və inqilablar əsri olan XX əsrdə keçmişdir. 19 yaşına qədər doğulduğu kənddə, sonralar isə Təbrizdə yaşayan Eldar Muğanlı, eyni zamanda sosiologiya elmləri uzrə ali təhsil və şəhər planlaşdırma elmi uzrə elmi dərəcə almışdır. Şeir və məqalələri dövri mətbuat və internet səhifələrində mütəmadi olaraq yayımlanır. Hal-hazırda Tehranda yaşayır və bir sosioloq kimi sosial tədqiq işləri ilə məşğuldur, eyni zamanda 2011-ci ildən yaratdığı "Ishıq"(*www.İshiq.net*) internet dərgisinin baş yazarı vəzifəsində çalışır.

Ədəbi prosesə daxil olandan bu günə qədər bu prosesdən ayrılmayan E.Muğanlının fəaliyyəti o taylı, bu taylı Azərbaycan ədəbi tənqidinin və ədəbi-mədəni cəmiyyətin diqqətindən yayınmamışdır. 2021-ci ilin oktyabr ayında Hümmət Şahbazinin redaktorluğu ilə Eldar Muğanlının 60 illiyinə həsr edilən "60 yaşın şərəfli həyat yolu" adlı kitabı çapdan çıxdı. 5 bölümdən ibarət olan kitabda şairin 60 illiyi münasibəti ilə keçirilən yubiley tədbirindəki çıxışların mətni, şairin haqqında yazılan 4 məqalə, 60-a yaxın şeir, 5 ədəbi-tənqidi məqalə və 80-ci illərə aid jurnalistlik fəaliyyəti ilə bağlı müsahibələri verilmişdir.

Bu kitab vətənpərvər şairin həyat və yaradıcılığını tamamilə əhatə etməsə də, E.Muğanlı haqqında tərtib edilən ilk sanballı kitabdır və şairin bu günə qədərki həyat və fəaliyyəti haqqında oxucuda müəyyən təəssürat yarada bilir. Kitabda Həsən İldırım, Nasir Davaran, Mürtəza Məcdfər, Ərşəd Nəzəri, Hacı Herizli, Nəriman Nazim, Hadi Qaraçay, Ramiz Taynur, Zəhra Yasəmən, Abdulla Yalçın, Rövşən Novruz, Həbib Fərşbaf, Rəhim Xiyavi, Fəriba Mürtəzayi, Kubra Mirhüseyni, Heydər Arazlı və Əlirza Miyanalı Eldar Muğanlının həyat və yaradıcılığına öz münasibətlərini bildirmişlər [10].

## Əsas hissə / *Main Part*

Eldar Muğanlı 1975-ci illərdən sonra yetişən çağdaş Güney Azərbaycan şairlərindəndir. O, ədəbi yaradıcılığa erkən – 16-17 yaşlarından başlasa da, ana dilində yazdıgı ilk şeirləri İran İslam İnqilabından (*1979-fevral*) sonra fəaliyyətə başlayan dövri mətbuatda, xüsusilə Təbrizdə nəşr olunan "Forüğ azadı" (*1979-cu ildən yeni nəşrə başlayıb*) gündəliyində, Bakı radiosunun Cənubi Azərbaycan redaksiyası verilişlərində və Azərbaycanın Sovetlər dövrü mətbuatında yayılmışdır.

Bütün varlığı – yaradıcı ruhu və əməli fəaliyyətləri ilə mənsub olduğu millətin mənəvi dəyərlərinin keşiyində duran, şair-publisist missiyasını ləyaqətlə yerinə yetirən, Azərbaycan ədəbi və sosial fikrinin inkişafına xidmət edən E.Muğanlı daima qəlbindəki saf, təmiz, ilahi sevginin işığıyla addımlayır.

سئوگی بیر دریادیر ساکیت دایانماز
اینسانی سئومه‌ین اونو دویانماز
سئوگیسی اولمایان شاعر اولامماز

شاعرین قدرتی محبتده‌دیر. – دئین ائلدار موغانلی نئجه ده بیر لازیمی معنایا، گرکلی ایسته‌یه توخونور. او دا کی، ائله باشلانیشیندان دئییر:- سئوگیسی اولمایان اینسانی دویمایاجاق. دوزو، ائله بو معنا منجه دوزگون فیکیر، اینسانی آمالدیر. اونا گؤره کی، نئجه اولار سئوگینی دوشونمه‌دن، دویمادان اینسانی آمالی داشیییاسان؟ هله قالسین کی، ائلدار دئین کیمی تام معنادا دئسک، محبتی اولمایان شاعر اولامماز.[9, s.7]

*“Sevgi bir dəryadır, sakit dayanmaz,*
*İnsanı sevməyən onu duyammaz.*

*Sevgisi olmayan şair olammaz,*
*Şairin qüdrəti məhəbbətdədir,*

– deyən Eldar Muğanlı bir lazımi mənaya, gərəkli istəyə toxunur: Sevgisi olmayan insanı duymayacaq. Düzü, elə bu məna fikrimizcə düzgün fikir, insani amaldır. Ona görə ki, necə olar sevgini düşünmədən, duymadan insani amalı daşıyasan? Hələ qalsın ki, Eldar deyən kimi tam mənada desək, məhəbbəti olmayan şair olammaz”. Bu sətirlər Əlirza Miyanalının E.Muğanlının 90 lirik şeirini ehtiva edən “Şeir məcmuəsi” adlı ilk kitabına həsr etdiyi məqaləsindəndir.

Muğanlının şeirlərinin bir hissəsi 1990-cı ildə görkəmli ədəbiyyatşünas Yəhya Şeydanın ön sözü ilə “Həyat yollarında” adlı kitabında nəşr edilmişdir. O vaxtlar gənc şairin ürəyindəki işığı sezən ustad Yəhya Şeyda kiçik ön sözündə yazır: “Həyat yolları eniş-yoxuşlu, dönüm-döngəlidir. Bu yolun karvanı sədaqət və məhəbbət vasitəsilə məqsədə çata bilər. Həyatın yollarının ayrımında müxatirələr, boğuntular və sıxıntılar pusquda yatıb. Onu ötən yolçuda səbir, istiqamət və dözüm gərəkdir. Yoxsa, əyri-buruq, ilan kimi bir-birinə qıvrılmış keçidlərindən salamat can qurtarmaq mümkün deyildir. “Həyat yollarında” adlı bu məcmuə Eldar Muğanlının taleyini, keçdiyi həyat yollarını əks etdirir. O, bu həyat yollarında xeyli məziqələrə tuş olub, kövrək qəlbi sıxıntılar və əzablar çəkmişdir. Lakin ümid və inamla bu yolları keçib sınaqlardan alnıaçıq, üzüağ və müzəffər çıxmışdır”.

Cənub poeziyasında milli demokratik ədəbiyyatın ilk dönəmlərinə xas olan pafos, çağırış, üsyan, haray nidaları sakit və səssiz təbiətli Muğanlının yaradıcılığının əvvəllərində yazdığı şeirlərinin əsas motivini təşkil etsə də, onun haray və etirazları pafosdan, hay-küydən, çığırtı və epotajdan uzaq, bir qədər içədönük və bədbin əhvali-ruhiyyə ilə müşayiət edilirdi. Baş mövzuları vətən, ana dili, milli kimlik, milli azadlıq, əmin-amanlıq, sülh, məhəbbət, təbiət gözəllikləri və s. olan bu şeirlər, adətən klassik heca və əruz vəznlərində yazılmışdır. Bu ruh halı sarsılmaz iradəli, prinsipial xarakterli şairin yaradıcılığının sonrakı mərhələlərində onun poetik təxəyyülünün dərin psixoloji qatlara enir, yeni bədii ifadə, forma, məzmun və mənalarla üzə çıxır, tənqidçi-ədəbiyyatşünas Əhməd Şaya Alavun “Eldar Muğanlının həyat yolları” adlı məqaləsində yazdığı kimi “Təkamül döyüşü al Günəş tək insanın qaranlıq yollarına qızıl şüalar saçır” [1, s.52].

Zaman göstərdi ki, qələm dostlarının və xüsusən də ustad Y.Şeydanın xeyir-duası gənc şairə düşərli olmuşdur. Güney poeziyasına yeni səs, yeni rəng qatan Muğanlı çətin, sərt, keşməkeşli “*həyat yollarını*” büdrəmədən qət edərək “*ümmanların sorağında*” “*axan ulduzlarla*” azadlıq Günəşinə doğru irəliləyir:

*Sayrışır səmada yenə ulduzlar,*
*Sanki bu fikrimə gülümsəyirlər.*
*Fikrimdə fikrimdən bir fikir doğar;*
*Elə bil ulduzlar belə deyirlər:*
*Yandırır odumuz zülmətin kökün,*
*Yandıqca bəzən də yox oluruq biz.*
*Bu gərgin döyüşdə axsaq da hər gün,*
*Günəşə yol açır bu axmağımız.*

"Axan ulduzlar" adlı şeirində doğma ana torpağının qucağında vətən, azadlıq uğrunda canlarından keçən fədailər, mücahidlər, şəhidlər səmanın döşündə sayrışan ulduzlara bənzədilərək kiçik bir mətn parçasında iki – "Ulduz" konsepti ilə "Fədai" konseptinin assosiasiyasından "Ulduz İnsan" və "Ulduzların axışı" (*İnsanın öz amalı uğrunda mücadiləsi – yanması*) ilə – irəliləmənin (*Təkamül*) "Yaşamaq yanmaqdır" konseptual metaforası yaranmışdır. Bu metaforalar burada "Ulduz" və "Ulduzların axışı" konseptlərinin "Fədai" və "Təkamül" konseptlərinin köməyilə anlanılmasında öz koqnitiv funksiyasını yerinə yetirirlər.

Bundan başqa elə həmin mətnin sadəcə bir "*Fikrimdə fikrimdən bir fikir doğar*" misrasında üç dəfə təkrarlanan "*f*" samitinin qüvvətli alliterasiyası fikrin, düşüncənin fonetik obrazını yaradır və bununla baş verən hadisənin bədii təsirini daha da artırır.

Ümumiyyətlə, Muğanlı yaradıcılığının son mərhələsinə aid olan əksər "Yarımçıq söz" (*1997, mübariz şeirimizin bayraqdarı ustad Həbib Sahirin nisgilli ölümünü anarkən),* "Üşütmə" (*2009*), "Küçələrə açılan yaşıl qapılar" (*2010*), "Torpaq ögey olmaz" (*2011*), "Bənövşə" (*2011, Nüsrət Kəsəmənlinin "Yumul bənövşəm, yumul" şeirinə nəzirə),* "Sevgi günümüz" (*2012*), "Bu torpaq vətənimdir" (*2012*), "Qaranquş" (*2013*), "Bütövlük" (*2013*), "Qaşla göz arasında" (*2018*), "İtgilər" (*2020*) və s.) şeirlərində belə assosiativ ifadə üsuluna rast gəlmək olur.

Əlbəttə, təkcə müharibə və inqilabları ilə deyil, həm də sənət əsərlərinin hüdudsuz müxtəlifliyilə tarixdə qalan XX əsrin övladı olaraq get-gedə bərkdən-boşdan çıxıb təcrübələnən, püxtələşən Muğanlının şeirləri də ideya-bədii, forma və məzmun cəhətdən kamilləşir, sonralar sərbəst şeir formasında siyasi motivli fəlsəfi-psixoloji şeirlərə daha çox üstünlük verir.

Eldar Muğanlı lirik şairdir. Muğanlı lirizminin bütün cazibədarlığı, sirri-sehri isə onun ideya gücündə, məcazlarında, çox funksiyalı metaforik anlamlarında, oksimoron ifadələrindədir. Sakit, mülayim, təmkinli və təvazökar təbiətli şairin daxili iztirablarının, məhsulu olaraq ortaya yumşaq-kəskin bir lirizm çıxır: Qan ağlayan sevinc, aşikar sirr, kiçik böyüklük, məğlub qəhrəman, həsrətli vüsal və s. Bu ifadə xüsusiyyəti şairin poetik təxəyyül və təfəkkürünün sonsuzluğunu, üslubunun bənzərsizliyini təmin edir.

"Üşütmə" şeirində həzin-həzin üşüyən lirik məni ürəyinin başına yağan qarın soyuqluğundan çox kirliliyi üşüdür və bu üşütmə ilə oxucunun ürəyində elə bir atəş yaxır ki, onu yalnız parçalanmış vətənimizin azadlığı və bütövlüyü sevinci söndürə bilər.

*Qar yağır ...*
*Qar yağır ürəyimin başına*
*İçını itirmış*
*Tamını unutmuş*
*Qara bir qar;*
*Qəribədir ruzigar…!*

Şair sadəcə yazmır, yazdıqlarını yaşayır, yaxud da yaşadığı anları yazır və yaşadıqlarını oxucuya yaşatmağı, onu düşündürməyi də bacarır. Odur ki, misraları üşüyən dünyanın üşüyən anlarında donub əbədi diri qalır. Bu məhrəmliyi, bu həzinliyi isə oxuçuda yalnız E.Muğanlı kimi həssas, kövrək ürəkli, dərin düşüncəli, səssiz duyğuyüklü sənətkarlar yarada bilir.

*Qar yağır ürəyimin başına,*
*Qara bir qar.*
*Bulanır ağ çiçəkli qızıl aynam,*
*Üşüyür bənövşəli dünyam.*
*Canlanır aynamda*
*Qasırğaya düşmüş cılız bir dağ;*
*Ətəyi çırkab,*
*Başı çılpağ.*
*Yazığım gəlir belə dağa,*

*Belə havaya.*
*Yazığım gəlir belə qara,*
*Belə ruzıgara...*

E.Muğanlının əksər şeirlərində misra özündən öncəki misranın açması kimi gəlir, ona görə də oxucuda maraq doğurur, həyəcan yaradır, onu fikirlərinin arxasınca çəkib apara bilir:

*Şəhərin ruhuna hopur*
*Susuzluğa axan bahar*;
*Yaşıllaşır qapılar*
*Yaşıllaşır küçələr*;
*Yaşıllaşır xəzəllənmiş şəhər [11].*

"Ana" şeirində isə şairin ana, vətən, azadlıq, xoşbəxtlik, vüsal həsrətləri həsrət obrazında birləşir və burada intim lirika yenə də qüvvətli vətənpərvərlik motivləri ilə kəsişir.

*Ayrılığın od qalayır sinədə,*
*Alovlanır görüşünə ürəyim.*
*Arzularım gül açmasa, yenə də*
*Vüsal eşqi gərəyimdir, gərəyim [8, s.30].*

Köhnə həsrətləri ilan kimi soyulub qabıqdan çıxan lirik mən artıq yeni bir arayış izindədir; "*İNQİLAB*" istəyir, çox *"sevdiyi Səttarxanın bayrağını"* dalğalandırmaq üçün yeni Səttarxanlar istəyir. Bunu həm də *"30 illik qəhrini udan saralmış kücələr, qəribsəmiş qapılar, payızlaşmış,"İNQİLAB"dan "AZADİ"yə can atan"* şəhər istəyir.

*Küçələrə açılan qapılarda*
*Bahar qoxusu var,*
*Payız qorxusu var*;
*Küçələrə açılan qapılarda*
*Neçə ildir döyüşür*
*Payızla bahar [11].*

E.Muğanlı romantikası yüksək xəyali əhval-ruhiyyəni, həyatın parlaq cəhətlərinin səciyyəsini əks etdirən keyfiyyətdir və realist şairin həyatın bu və ya digər tərəflərinə münasibətini göstərir. Odur ki, sənətkarın real zəminlə əlaqəsi heç kəsilmir. Muğanlı poeziyasında həyat həqiqəti prinsipi zamanının mütərəqqi ideyalarına bağlı olduğundan özünün daha dolğun ifadəsini tapır.

"Yarımçıq söz" şeirində qaranlıq, zülm, zülmət, şər simvollarını ifadə edən kölgə obrazı rəmzi obrazdır və eyni zamanda mənbə domen – zülm maşını, mexanizmi, güc konseptidir. Misradan misraya keçdikcə libasını dəyişir və metoforikləşir:

*Kölgələr sərilib şəhərin ustünə*
*Ürəyi irinli,*
*Gözü kinli,*
*Nəfəsində zülmət qoxusu,*
*Səsində gecə qorxusu...*

Metaforadan metaforalar doğulur. Ancaq burada mənbə domenin anlaşılması hədəf domenlərin anlaşılmasından o qədər də asan deyildir. Mənbə domenin insan, qorxu, ruh və s. hədəf domenləri vasitəsilə konseptuallaşması mənbə domenin daha aydın anlaşılmasına, nakam şairin (*Həbib Sahirin*) ölüm anının daha orijinal və təsirli təsvir və tərənnümünə kömək edir.

*Dalğasız bayraq kimi*
*Asılı qalır eyvandan*
*Barmaqları düyünlü,*
*Gözləri səhərin pəncərəsinə tikili,*
*Ağzı açıq,*
*Sözü yarımçıq;*
*Boğazında düyünlənən "AH" sözümü,*
*yoxsa "AZA..." [5]*

Muğanlının ana laylası tək həzin və kövrək lirikasının özəyində siyasi motivlər durur. Bu isə şairin siyasi məfkurəsinin iliyinə qədər işlədiyinə, pozitiv və saf enerjilər kodlanmış hiss və duyğularına tamamilə hakim olduğuna dəlalət edir.

*Üşüyür duyğularım,*
*Közündən pay umuram.*
*Görünməz yuxuların.*
*Gözündən pay umuram.*

*Düşübdür dilə sevgim,*
*Aylara, ilə sevgim.*
*Pozulur belə sevgim,*
*İzindən pay umuram.*

*Gecikib ilk baharım,*
*Talanıb sevgi varım.*
*Çoxuna yox qərarım,*
*Azından pay umuram.*

*Əriyir yerə kölgəm,*
*Oynadır atını qəm.*
*Çəkilib dara nəğməm*
*Sözündən pay umuram.*

*Ürəkdə bitənimsən,*
*Gül üstə ötənimsən,*
*Pay verən vətənimsən,*
*Özündən pay umuram [3].*

"*Duyğuları üşüyən, sevgisi dilə-dişə düşüb hicrandan pozulan, nəğməsi dara çəkilən*" lirik mən ən çətin anında ürəyində bitən vətən eşqinə sarılır, ondan kömək umur. Burada intim lirika qüvvətli vətənpərvərlik motivləri ilə kəsişir.

Poetik aləminin dərinliklərnə qəvvas tək baş vuran Muğanlı yaradıcılığının bütün dönəmlərində zəmanəsinin və yaşadığı cəmiyyətin həyatında baş verən sosial hadisələrinə, mədəni-tarixi məsələlərinə öz münasibətini bildirmişdir. 2012-ci ilin avqust ayında İran Azərbaycanının Qaradağ mahalında baş verən güclü zəlzələ nəticəsində 300-400 nəfərə qədər insan ölmüş, bir çox kəndlər tamamilə məhv olmuşdur. Buna baxmayaraq, xalqın matəmli günlərdə İran Dövlət Televiziyası şənlik və əyləncə proqramlarını davam etdirir, zəlzələdən bir-iki gün sonra isə Mərkəzi dövlət orqanı elan edir ki, zəlzələ olan bölgədə hər şey normaldır və aidiyyatı təşkilatlar böyük maşınlarla uçub-tökülən evləri düzəltməlidirlər. Bu xəbər azərbaycanlı əhalinin təəssüf və hiddətinə səbəb olur. Halbuki həmin günlər hələ o uçqunların altında cənazələr və çoxlu ölülər qalmışdır. Bu

hadisə şair Muğanlının həssas könül rübabını "Qaradağım" (*2012*), şeiri ilə dilləndirir. Şeirdə "*diri-diri basdırıldıq*" ifadəsi də bundan irəli gəlir:

*Qollu-qanadlı qırıldıq,*
*Diri-diri basdırıldıq,*
*Kürəyimizdən vurulduq,*
*Mənim iyidim, qoçağım,*
*Qaradağım!*

*Zaman yatmadı yatıma,*
*Qəm ələnmiş həyatıma,*
*Duman çöküb bayatıma,*
*Kədər yağır qoşmam, ağım,*
*Qaradağım! [4]*

"*Bayrağa çevrilmiş səhər"*(*2020*) şeiri lirik qəhrəmanın konkret ruhi vəziyyətinin təzahürüdür. Lakin Muğanlı yaradıcılığında ümumiyyətlə, şairin şəxsiyyəti ilə onun lirik qəhrəmanı arasında möhkəm əlaqə, vəhdət mövcudluğu bu qəhrəmanın fikir, həyəcanlarını nəinki şairin mütləq özünün, hətta bütöv millətinin, bəşəriyyətin fikir və həyəcanları kimi qəbul etməyə əsas verir.

*Ayağa qalxıb dərindən köks ötürdü,*
*Yürüdü dan yerinin keçidinə,*
*Səhərin sərin nəfəsi sızdı sinəsinə.*
*Üfüqin dərinliyində açılırdı bənövşənin laylay açılışı,*
*Laylalara qoşulurdu torpağın gözündə yaralı uçuşu,*
*Halqalanmışdı qan boyalı şəfəq günəşin boynuna,*
*Yerlə-göy arasında tikili qalmışdı baxışı ona.*

Bu cür mətnlərdə şairin poetik təxəyyülü dil və düşüncə proseslərinin mürəkkəb əlaqə sisteminin yaradıcısına çevrilir. Oxucu mübaliğələr, epitetlər, təşbehlər, metaforalar, obrazlar bolluğunda, adətən, qeyb olur. Metaforalar burada müxtəlif koqnitiv (*poetik, semantik, linqvistik*) funksiyaları yerinə yetirir.

*Səhər əmizdirdikcə baxışlarını,*
*Tamsındı beynində ləpələnən qızılı illərini, mavi nisgillərini.*
*Gözlərində gilə-gilə göyərdi işıq qoxusu,*
*Ürəyində ərim-ərim əridi gecə qorxusu.*
*Daraldı şəfəq, sıxıldı günəş,*
*Yayıldı bənövşənin açılışına torpaq boyalı diləklər,*
*Dalğa-dalğa dalğalandı, bayrağa çevrilmiş səhər [7].*

Bu mətndə ritmlilik sintaktik paralellərlə yanaşı, buradakı bütün qrammatik formaların assosiativ semantikasından yaranır. Ritmik nitq parçasını isə daha çox ovqat tamamlayır.

**Nəticə / *Conclusion***

Təhlillərimiz belə bir qənaətə gəlməyə əsas verir ki, E.Muğanlı poeziyası avanqard meyilli, fəlsəfi düşüncə poeziyasıdır və bu düşüncə dünyası bütünlüklə sosial-siyası motiv daşıyır. Örnək şeir nümunələrindən də gördüyümüz kimi bu poeziya mental fondda mövcud olmayan yeni mənalar üçün əlverişli mühit yaratmağa qadir Eldar Muğanlı dilində gerçəkliyin yeni təqdimatıdır.

Bu poeziyanın estetik kamillik dərəcəsi isə daima yeni poetik məzmun və məna axtarışlarında olan şairin zəngin mənəvi aləmi, güclü təxəyyül və təfəkkür qabiliyyəti, əsərlərinin ideya gerçəkliyinin əhəmiyyətilə şərtlənir.

Ömrünün məhsuldar dövrünü yaşayan, “qızıl aynasını mavi gözlü bahar gözəlinin qızılı saçlarından asan”[6], yaşadığı çətinliklərə baxmayaraq, yorulmadan irəliləyən, gələcəyə inam və ümidlə baxan şair Muğanlıya sevgi dolu dünyasının baharlanmasını arzu edir, ona şərəfli həyat yolunda uğurlar diləyir və inanırıq ki, ədəbi-mədəni tariximizdə ləyaqətli yer tutan Eldar Muğanlı və məsləkdaşlarının həyat və yaradıcılıqları ədəbiyyatşünaslarımız tərəfindən daha geniş və hərtərəfli şəkildə tədqiq ediləcəkdir.

**Ədəbiyyat / *References***

1. Alav Ş.Ə. Ədəbi-tənqidi araşdırmalar. İran/Kərəc, qeyri-rəsmi çap olunub (I cild), 1990.
2. Əhməd V. Azərbaycan ədəbiyyatşünaslığı (jurnal). Mir Cəfər Pişəvərinin publisistikası. Bakı: Elm və təhsil, 2020, № 1.
3. https://ishiq.net/seir /20629
4. https://ishiq.net/seir /2095
5. https://ishiq.net/seir /3583
6. https://ishiq.net/səs /25586
7. https://ishiq.net/səs /26183
8. Muğanlı E. Həyat yollarında. İran/Tehran: Mina, 1990.
9. Muğanlı E. Şeir məcmuəsi. Təbriz, qeyri-rəsmi əlyazma şəklində yayılmışdır, 1984.
10. Şahbazi H. 60 yaşın şərəfli həyat yolu. Təbriz: Nizami Gəncəvi, 2021.
11. www.ishiq.net

## Социально-политические мотивы в поэзии Ельдара Муганлы

**Гандаб Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gendab16@gmail.com

**Резюме.** Выдающийся поэт, публицист Эльдар Муганлы является одним из представителей третьего поколения национально-демократической литературы Южного Азербайджана. Э.Муганлы, уже многие годы служащий развитию азербайджанской литературы, культуры и печати в Иране, помимо своей поэтической и публицистической деятельности, также занимается литературной критикой, компиляцией и исследованиями. Поэт, известный своей активной общественной деятельностью, также является одним из интеллектуалов, отличающихся совершенной личностью – высокой культурой и благородными человеческими качествами.

В данной статье пойдет речь о социально-политических мотивах, лежащих в основе поэзии Эльдара Муганлы – его заунывном, скорбном, высокоэстетичном, идейно значимом поэтическом мире.

**Ключевые слова:** Южный Азербайджан, поэзия, Эльдар Муганлы, социально-политический мотив, национальная свобода, метафорический